# Azərbaycan-İran əməkdaşlığı yeni inkişaf mərhələsindədir

Azərbaycan ilə İran xalqları arasında din, mədəniyyət, mənəvi dəyərlər baxımından yaxınlıq iki ölkənin əlaqələrinə təsir göstərən mühüm amillərdən biridir. İranla qarşılıqlı faydalı münasibətlərin genişləndirilməsi Azərbaycanın xarici siyasət xəttində prioritet istiqamətlərdən birini təşkil edir. Rəsmi Tehranın Azərbaycanla əməkdaşlığa olan marağı ölkəmizin malik olduğu strateji-coğrafi mövqe, həm də möhkəm siyasi sabitliyə, demokratik inkişafa, beynəlxalq birliklə fəal inteqrasiyaya söykənən dövlətçilik kursunun dönməzliyi ilə şərtlənir.



**Prezident İlham ƏLİYEV:** *“Biz ikitərəfli əlaqələrimizi möhkəm zəmin üzərində qururuq. Mən çox şadam, artıq 25 ilə yaxındır ki, İran-Azərbaycan dövlətlərarası əlaqələr uğurla inkişaf edir”*

Bu günlərdə İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin ölkəmizə rəsmi səfəri də ikitərəfli münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyini bir daha təsdiqlədi.

Rəsmi Bakının İranla mehriban qonşuluq münasibətlərinin tərəfdarı kimi çıxış etməsi son illər ölkələrimiz arasında əlaqələrin ən müxtəlif səviyyələrdə inkişafına ciddi təkan vermişdir. Həm İranın, həm də Azərbaycanın zəngin iqtisadi potensiala malik olması mövcud əməkdaşlığın daha da dərinləşdirilməsini zəruri edir. İran bu gün Azərbaycanın ixrac-idxal əməliyyatları apardığı əsas dövlətlərdən biridir - iki dövlət arasında ticarət dövriyyəsinin həcmi ildən-ilə yüksəlir. Bu il ticarət dövriyyəsinin həcmi 66 faiz artıb. Dünyada iqtisadi-maliyyə böhranının səngimədiyi bir şəraitdə belə bir nəticənin əldə edilməsi müsbət haldır. İranlı iş adamları respublika iqtisadiyyatına investisiya qoyuluşunda mühüm paya malikdirlər. Mövcud əlaqələr çoxşaxəli olub iqtisadiyyatın ən müxtəlif sahələrini əhatə edir.

İran Prezidentinin səfəri ərəfəsində Neftçala şəhərində “İran Khodro” şirkətinin istehsal edəcəyi avtomobil zavodunun təməli qoyuldu. Bu da əməkdaşlığımıza çox gözəl nümunədir. Zavodda hər il 10 mindən çox avtomobil istehsal ediləcək və bu da əməkdaşlığın yeni formasıdır. Yaxın zamanlarda Azərbaycanda İran texnologiyası ilə çalışacaq dərman preparatları zavodunun tikintisi də nəzərdə tutulur. İmişli-Parsabad nəqliyyat xəttinin birləşməsi iki ölkə arasındakı əlaqələrə, həm də regional əməkdaşlığa çox müsbət təsir göstərəcək. “Şimal-Cənub” nəqliyyat dəhlizinin yaradılması istiqamətində də önəmli addımlar atılıb. Bu dəhlizin reallaşması üçün ilk addım Astara-Astara dəmir yolu xəttinin birləşdirilməsidir. Digər bir tərəfdən də Astara-Rəşt dəmir yolu xəttinin bir-birinə bağlanması çox böyük imkanlar açacaq. Sərmayə qoyuluşunun 50 faizi İran, 50 faizi isə Azərbaycan tərəfindən təmin ediləcək. Dəmir yolu xəttinin istifadəyə verilməsi nəticəsində Azərbaycanın Fars körfəzinə çıxışı təmin olunacaq. Bununla da Qafqaz ölkələrinin, Rusiyanın, Şimali və Şərqi Avropanın Fars körfəzinə və Hindistana çıxışı təmin ediləcək ki, bu da region ölkələrə böyük iqtisadi dividendlər gətirəcək.

İran Prezidentinin dünyadakı mühüm geosiyasi reallıqlar fonunda bu günlərdə Azərbaycana rəsmi səfəri də ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini təsdiqlədi. Prezident İlham Əliyev və İran İslam Respublikasının Prezidenti Həsən Ruhani arasında keçirilən görüşdə əməkdaşlıq münasibətlərinin hazırkı vəziyyətindən məmnunluq ifadə olundu. Əlaqələrin ölkələrimizin və xalqlarımızın maraqlarına uyğun olaraq bütün sahələrdə, o cümlədən həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində daha da inkişaf etdirilməsi ilə bağlı geniş fikir mübadiləsi aparıldı. Söhbət zamanı ölkələrimiz arasında iqtisadi, eyni zamanda, enerji, sərmayə qoyuluşu, bank, ticarət, turizm, nəqliyyat, yüklərin daşınması, infrastruktur, mədəniyyət və digər sahələrdə əməkdaşlıq əlaqələrinin inkişafı üçün səylərin gücləndirilməsinin zəruriliyi qeyd olundu. Görüşdə Xəzərin dostluq və əməkdaşlıq dənizi olduğu vurğulandı. Həmçinin Azərbaycanın və İranın birlikdə digər ölkələrlə də əməkdaşlıq imkanları müzakirə olundu.

***Ardı 3-cü səh.***

# Azərbaycan-İran əməkdaşlığı yeni inkişaf mərhələsindədir

*Əvvəli 1-ci səh.*

İki ölkə arasında tranzit daşımaları, o cümlədən "Şimal-Cənub" nəqliyyat dəhlizi çərçivəsində əməkdaşlıq, terrorizmlə mübarizə, regional sülhün və sabitliyin təmin edilməsi məsələləri müzakirə edildi. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.

Səfər zamanı Azərbaycan Prezidenti İlham Əliyevin və İran Prezidenti Həsən Ruhaninin iştirakı ilə Azərbaycan-İran sənədlərinin imzalanması mərasimi keçirildi. Bu sırada "Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilə İranın Standartlar və Sənaye Tədqiqatları İnstitutu arasında standartlaşdırma, metrologiya, uyğunluğun qiymətləndirilməsi və akkreditasiya sahələrində Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə İran İslam Respublikasının Mərkəzi Bankı arasında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə İran İslam Respublikasının Mədəni İrs, Əl İşləri və Turizm Təşkilatı arasında turizm əməkdaşlığı sahəsində İcra Proqramı (2016-2019)", "Azərbaycan Respublikası hökuməti ilə İran İslam Respublikası hökuməti arasında "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin reallaşdırılması sahəsində əməkdaşlıq haqqında Niyyət Protokolu"nu misal göstərmək olar. Bununla yanaşı, iki ölkənin müvafiq qurumları arasında elektron təhlükəsizlik sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu, habelə bitki mühafizəsi və bitki karantini sahəsində əməkdaşlıq haqqında saziş də imzalandı. İki ölkə arasında müxtəlif sahələrə dair imzalanmış razılaşmalar əməkdaşlıq tellərinin daha da möhkəmləndirilməsi baxımından vacib əhəmiyyət kəsb edir.

Sənədlərin imzalanması mərasimindən sonra ölkə başçıları mətbuata birgə bəyanatlarla çıxış etdilər. Prezident İlham Əliyev iki ölkə arasındakı münasibətləri belə xarakterizə edib: "Biz ikitərəfli əlaqələrimizi möhkəm zəmin üzərində qururuq. Mən çox şadam, artıq 25 ilə yaxındır ki, İran-Azərbaycan dövlətlərarası əlaqələr uğurla inkişaf edir. Onu da qeyd etməliyəm ki, inkişafın son dövrü xüsusilə əhəmiyyətlidir. Çünki son bir neçə il ərzində İran-Azərbaycan əlaqələrinin inkişafında çox böyük irəliləyiş var. Biz, cənab Prezident, Sizinlə son bir neçə il ərzində dəfələrlə görüşmüşük. Qarşılıqlı rəsmi səfərlərin təşkili də bu istiqamətdə atılan çox önəmli addımlardır. Mən bu ilin fevral ayında İran İslam Respublikasında rəsmi səfərdə idim. Bu gün Siz bizim qonağımızsınız. Bu, özlüyündə bir göstəricidir. Onu göstərir ki, əlaqələr çox sürətlə, dinamik şəkildə inkişaf edir və yaxşı nəticələr var. Mənim İran İslam Respublikasına rəsmi səfərim çərçivəsində 10-dan çox sənəd imzalanmışdır. İndi altı ay keçməmiş yenə 6 sənəd imzalanıb və bu sənədlər gələcək fəaliyyətimiz üçün çox böyük əhəmiyyət daşıyır. İranda fevral ayında imzalanmış sənədlərin, razılaşmaların icrası təmin edilir. Bu gün də həm təkbətək görüşdə, həm nümayəndə heyətlərinin iştirakı ilə keçirdiyimiz görüşdə ikitərəfli əlaqələrimizin demək olar ki, bütün sahələri müzakirə edildi və müzakirələr çox konstruktiv şəkildə aparıldı. Əminəm ki, əldə edilmiş razılaşmalar bizim birliyimizi, əməkdaşlığımızı daha da gücləndirəcəkdir".

Siyasi münasibətlərin daha da möhkəmləndirilməsi bilavasitə iqtisadi münasibətlərin dinamik inkişaf zərurəti ilə şərtlənir. Ölkələrimiz və xalqlarımız arasında siyasi, iqtisadi, humanitar sahələrdə əməkdaşlıq əlaqələrinin inkişafı istiqamətində əldə edilmiş nailiyyətlər ümumilikdə dövlətlərarası münasibətlərin inkişafında öz sözünü deyir. İranın iqtisadi cəhətdən inkişaf etməsi, dünya miqyasında artan nüfuzu, eyni zamanda, Azərbaycanın iqtisadi baxımdan bölgədə lider rolunu oynaması, regionda və beynəlxalq aləmdə nüfuzunun daim artması kimi ümumi oxşarlıqlar əlaqələrimizin genişlənməsi üçün yaxşı zəmin yaradır.

Rəsmi Tehran Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə BMT-nin müvafiq qətnamələrinin yerinə yetirilməsinə və bu münaqişənin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı əsasında həllinə tərəfdar olduğunu dəfələrlə bəyan edib. Həmçinin İran münaqişənin sülh yolu ilə həll edilməsi istiqamətində ATƏT çərçivəsində fəaliyyət göstərən Minsk qrupunun təsirli və qətiyyətli addımlar atmasının vacibliyini də önə çəkir.

İran Prezidenti Həsən Ruhani mətbuat konfransında bu məsələlərə də toxunub: "Biz Dağlıq Qarabağ münaqişəsi haqqında da müzakirələr apardıq. Bu məsələ ilə əlaqədar ötən aylarda göstərilən səylər barəsində cənab Prezident bizə bəzi məlumatları verdi. İran İslam Respublikasının bu məsələyə baxışı ondan ibarətdir ki, region ölkələrində sülh və sabitlik bərqərar olsun, ölkələr arasında problemlər və ixtilaflar danışıqlar yolu ilə həll edilsin. Biz ölkələrin və eləcə də Azərbaycan Respublikasının ərazi bütövlüyünü dəstəkləyirik və sərhədlərin güc yolu ilə dəyişdirilməsinin əleyhinəyik. Ümidvarıq ki, regiondakı problemlər danışıqlar yolu və başqa ölkələrin səyləri ilə həll ediləcək və nəticədə sülh, sabitlik və təhlükəsizlik bərqərar olacaq. İran İslam Respublikası Azərbaycanın və Ermənistanın qonşusu kimi həmişə çalışıb ki, bu zəmində səylər danışıqlara və bölgədə təhlükəsizliyə yönəlsin. Əgər İran İslam Respublikasının bu sahədə əlindən gələ biləcək nəsə olarsa, biz köməyimizi əsirgəməyəcəyik.

Biz həmçinin bölgədə terrorizm və güc tətbiqinin Qafqaz, Orta Asiya, Yaxın Şərq, ümumiyyətlə, bütün dünya üçün böyük təhlükələr yaratması mövzusunda danışıqlar apardıq. Belə qərara gəldik ki, iki ölkənin səyləri terrorizmə qarşı mübarizədə daha da artırılsın".

İran dövləti Azərbaycanın Cənubi Qafqazdakı strateji yerini və rolunu düzgün qiymətləndirir, ölkəmizlə çoxşaxəli əməkdaşlığın gücləndirilməsinə mühüm diqqət yetirir. Prezident Həsən Ruhaninin Azərbaycana rəsmi səfərinin yekunları iki ölkə arasında münasibətlərin keyfiyyətcə yeni mərhələdə dinamik inkişaf etdiyini bir daha təsdiq etdi.

***Elnur HACALIYEV,***
***"Azərbaycan"***